# Akif Səmədi xatırlayarkən

**Bu il iyulun 22-də qeyri-adi istedad və xarakter sahibi, sufi şair Akif Səmədin 60 yaşı tamam oldu. 2019-c il həm də Prezidentimizin sərəncamı ilə Böyük Azərbaycan şairi, filosofu və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə "Nəsimi" ili elan edilib. Akifin yaradıcılığına kiçik bir nəzər yetirsək Nəsimi obrazının qırmızı xətlə keçdiyinin şahidi olarıq. Akif Səmədin 60 illik yubileyi Nəsiminin 650 illik yubileyinə təsadüf etdi. Görünür bu da bir Akif Səməd taleyi imiş.**

Akifin 60 illik yubileyinin keçirilməsi təşəbbüsü onun gənclik dostu, Akifin yaradıcılığına və şəxsiyyətinə böyük sevgisi olan tanınmış rəssam, şair qəlbli, sənət eşqli, Nəvai Metindən gəlmişdi. O, bu işə hələ ilin əvvəlindən hazırlaşmağa başlamışdı. Sonra bu təşəbbüsə Akifin, Nəvainin dostları, şairlər, saz-söz adamları, Akifin pərəstişkarları, dövlət orqanlarının nümayəndələri, jurnalistlər, televiziya kanalları da qoşuldu. Abşeron Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə Masazır qəsəbəsindəki küçələrdən birinə Akif Səmədin adı verildi. Şair İbrahim İlyaslının, professor Rüstəm Kamalın, Şair Rəfail İncəyurdun, rəssam Nəvai Metinin, naşir Fərman Qəhrəmanlının birgə dəstəyi ilə Akif Səmədin "60 İnci" kitabı nəşr olundu. "arb", media şirkətinin "Aran film" yaradıcılıq mərkəzi tərəfindən onun həyatına və yaradıcılığına həsr olunmuş "Ölüm nəmənədir" filmi istehsal olunaraq Qazax rayonunda təqdimat mərasimi keçirildi. Uluslararası Aktivist Sənətçilər Birliyinin başkanı Ümit Yaşar Işıkhanın təşəbbüsü ilə Türkiyənin Antalya şəhərində Akif Səmədin 60 illik yubileyi ilə bağlı tədbir keçirildi. Və nəhayət şairin 60 illik yubileyinin qala tədbiri 21 iyun 2019-cu il tarixdə Rəşid Behbudov adına Mahnı Teatrında keçirildi. "Azərbaycan Yazıçılar Birliyi", "Qazax Xeyriyyə İctimai Birliyi", "Uluslararası Aktivist Sənətçilər Birliyi" tədbirin təşkilatçıları qismində çıxış edirdilər. Tədbirdə yaxından-uzaqdan qardaş Türkiyyədən, Qırğızıstandan, Estoniyadan, Gürcüstandan gəlmiş qonaqlar, tədbirin təşkilatçıları, nümayəndələri, Millət vəkilləri, ölkəmizin görkəmli şair və yazıçıları, ziyalıları, saz-söz sənət adamları, şairin pərəstişkarları, ailə üzvləri, doğmaları, qohumları iştirak edirdi. Çoxdan idi ki, bu sənət məbədi - Mahnı teatrı belə bir qələbəlik, anşlaq üçün darıxmışdı. Tədbir sözün və sazın bir-birini əvəz etməsi formatında keçirilirdi, və təxminən 4 saat davam etdi.

Tədbir sona yaxınlaşmasına baxmayaraq heç kəs salonu tərk etmək istəmirdi. Bunun səbəbi, Akif Səmədə olan məhəbbət idi. Tədbirə gələnlər öz qəlblərinin səsi ilə gəlmişdilər. Bir sözlə həmin gün tədbirin iştirakçıları 4 saat müddətində qeyri-adi bir gün yaşadı. Akif Səmədin həyat və yaradıcılığı söz və saz adamlarının dili və ifası ilə qədim bir kitab kimi varaqlandı, yumaq kimi çözüldü və mən də belə bir tədbirdə heyranlıqla iştirak edirdim. Aparıcı idim. Bu gecədən ruhlanaraq Akif Səmədin yaradıcılığına bir daha qayıtmaq istədim. Akifin şeirlərini oxudum, "60 inci"ni incələdim və ürəyimdəkiləri varağa köçürdüm.

Akif Səməd cəmi 44 il yaşadı. Ömrünün 45-ci ilində həmişə tələsdiyi ünvana-ruhu göylərə, cismi isə torpağa qovuşdu. Mən indiyə qədər oxuduğum və eşitdiyim şairlər içərisində ölümə belə tələsən, onu arzulayan ikinci bir sənətkar tanımıram.

**Nə qədər dostlarım qabağa düşdü,**
**Gecikir ölümüm,yaman gecikir.**
**Səmti, yönü yaman uzağa düşdü,**
**Kəsibdi yolumu duman, gecikir.**

və ya:

**Səni bir şərəfli ölüm izləyir,**
**İzləyir qaranca, addımbaaddım.**
**Bir dəfə görmədin, yarıyammadın**
**İşin avand olsun, uğurlar ola,**
**Qarşına çıxası ölümün xeyir.**

Ancaq bu qısa, lakin mənalı ömür müddətində, tərəddüdsüz demək olar ki, o poeziya kitabımıza öz səhfəsini yazmaqla ədəbiyyat tariximizə əbədi daxil oldu.

Akif İncə Dərəsinin poeziya məktəbini yaşadan və bu poeziyanı yaradan şair idi. Bununla bərabər o, həm də ənənəyə sadiq qalmaqla novator, modernist şair idi. Eyni zamanda Akif təpədən dırnağa türk idi və özünü də Türk dünyasının şairi hesab edirdi. Bu baxımdan onu yaradıcılığında türkün taleyi əsas mövzulardan idi.

**Səhər-səhər əs könlümə, qiblə yelləri,**
**Gətir doldur ürəyimə torpaq səsini.**
**Bir ötəri, bir köçəri sevinc selləri,**
**Yuyub gedib sadiq qəmin söz həvəsini.**

**Pıçılda ki, daranıbdı at dırnağında,**
**Bu gördüyün, bu gəzdiyin qıpçaq çölləri.**
**Misralarım niyə ağlar qurd oylağında?**
**Səhər-səhər əs könlümə, qiblə yelləri.**

Akif Səməd danışanda da, yazanda da dilini, ləhcəsini dəyişmədi. Bəlkə elə Akif şeirlərini sevdirən, yaşadan onu dialektilə yazmağı idi. O, şeirlərini canlı xalq dilində yazır və əsərlərində bu ifadə formasını yaşada bilirdi.

Onun poeziyasının dili o qədər sadədir ki, sanki səninlə söhbət edir:

**Sonalar göldə ötüşür,**
**Allah, daş-daşa yeriyir.**
**Budaq budaqla öpüşür,**
**Ağaclar qoşa yeriyir.**

**Sallanıb keçir Salatın,**
**Yerişindən qan boylanır.**
**Cavan oğlanın ürəyi,**
**Qocanın imanı yanır.**

Mən şair deyiləm və şeirlərin göydən necə gəldiyini, həmin anda şairlərin hansı ağrılar, əzablar çəkdiyini və s. yazıb qurtardıqdan sonra necə yüngülləşdiyini təsəvvür edə bilmirəm. Lakin indiyədək, təmasda olduğum, oxuduğum bütün şairlərdən bunu eşitmişəm ki, Müqəddəs kitabları oxuyanda insan nə qədər mənən zənginləşirsə, saflaşırsa, rahatlaşırsa, yüngülləşirsə şeir də elədir. Onu yazdıqca, oxuduqca durulursan, bəyazlaşırsan, bakirləşirsən.

Dediklərimə Xalq Şairi Nəriman Həsənzadənin bircə bəndini misal gətirmək istəyirəm:

**Şeir yazdığım gün məğrur oluram,**
**İlham ki, xəfifcə sinəmə dolur;**
**Bir şeh damlasıtək büllur oluram,**
**Dünya dünyada yox, məndə əks olur.**

Akif Səməd də eynən Nəriman Həsənzadə kimi deyir. Onu şair kimi dərk etmək üçün bəlkə də bircə şeirini oxumaq kifayət edərdi: "Şeir yazanda" şeirini:

**"Bir qarışqa yuvasına dən daşıyıram,**
**Saçaqlanar, sünbüllənər barmaqlarım da**
**Necə əsri birdən-birə mən yaşayıram,**
**Hadi, Müşfiq qəbir tapar barmaqlarımda.**

Şeir yazanda bülbül Akif Səmədin qolları üstünə qonur, o quş dilini başa düşür ( Nəsimi kimi) "lal qayalar onunla danışır", "kar qayalar dərdini ona açır". Şeir yazanda Akif Səməd o qədər müqəddəsləşir ki, Tanrılar da mələklər də onun qonağı olur, "ulduzlar onun şeir yazdığı vərəqlərə tökülür".

**Unuduram hər pisliyi, pislikləri mən,**
**Öz günahım, söz günahım durar qəsdimə.**
**İşıq bilib pərvanələr uçar qəlbinə,**
**Alışarlar, kor olarlar isti-tüstünə.**

Bəli şeir yazanda özündə olmur Akif Səməd, dünyadan xəbəri olmur onun, gah qorxusundan dovşan kimi yovşanın dibinə qısılır, gah da "vəzifəli dolayları" vecinə almır, "ildırımdan, sıldırımdan xəbəri olmur".

**Günəş doğar, üfüq yanar bəbəklərimdə,**
**Çiçəklərə, böcəklərə tamaşa qıllam.**
**Dünya özü qoşun-qoşun ötər önümdən,**
**Öz bakirə ürəyimlə baş-başa qallam.**

Akif Səməd İncə Dərəsində sazlı-sözlü bir məkanda dünyaya göz açıb.

O, İncə Dərəsindəki Aşıq Avdı Qaymaqlıdan tutmuş Rafail İncəyurda qədər söz-sənət bilicilərinin, böyük bir dəstəsini Azərbaycanımıza bəxş edib. Yazılarımın birində yazmışdım ki, göy çatlayanda Yer əmələ gələndə ilk dəfə İncə Dərəsi və sinəsində telli saz, qəlbində söz boxçası olan bir İncəli yaranıb. Sonra söz də, sənət də elə bu məkandan bütün Azərbaycana, ərşə-gürşə yayılıb.

**İncə dərəsində-Suqarışanda,**
**Sazı sinəsində ozan vardı ha,**
**Tarixi daşlara yazan vardı ha,**
**Ondan sol tərəfdə, ürək yanında**
**Tüstüdən qaralmış dirək yayında**
**Qaraqaş bir oğlan çatıb qaşını**
**Qarasaç bir qıza nəsə deyirdi...**

Bax bu oğlan həmin o ilk yaranan adam idi. Bəlkə də elə o lap qədimdən gələn Akif Səməd idi.



Akif Səməd də belə bir məkanda dünyaya göz açdı. Gözünü açanda ilk eşitdiyi ana laylası oldu. Qoşma, gəraylı, təcnis, qımqımı, üstündə oxunan bu ana laylası Akif Səmədin ruhuna, qanına, canına hopdu. Bu yerlərin yığnaqlarından, sözdən, sazdan bəhrələndi, Hacı Əfəndi ocağının ifran bulağından su içərək pöhrələndi, boy verdi.

1982-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdikdən sonra "Gənc müəllimi" qəzeti və "Mərhəmət" jurnalı redaksiyasında, Azərbaycan Dövlət Teleradio şirkətində çalışdı. Tələbəlik illərindən başlayaraq yaradıcılıqla məşğul oldu, şeirləri dövrü mətbuatda dərc edildi və tez bir zamanda populyarlıq qazandı. "Qiblə yelləri", "Uzaqlardan gəlirik", "Ömrü özünə yaşasan","Adəmdən", "Özümə yol" kitabları nəşr edildi.

Təəssüf ki, Akif Səməd cəmi 44 il yaşadı. Bu yarımçıq qalmış ömründə təxminən 25 illik yaradıcılıq dövründə çox şey yaratdı. Elə yaratdıqları ilə yazdıqları ilə, xarakteri, ədaləti, kişiliyi mərdliyi ilə yaddaşlara köçdü. Tarix üçün 44 il bir şimşək ömrüdür. Akif Səməd şair kimi də, insan kimi də, bir şimşək ömrü yaşadı.

O, şimşək kimi çaxdı, parladı elə şimşək kimi də söndü. Lakin yaradıcılığı ilə xarakteri ilə çox gözləri qamaşdırdı. O, nə yazdısa, yaddaşlara köçdü. Deyirlər hər ömür xatirəyə dönmür, hər insan xatirələşmir. Ancaq Akif Səməd həm yaradıcılığı, həm poeziyası, həm publisistikası, həm də şəxsiyyəti ilə xatirələşdi.

Akif Səmədin Ağamalı Sadiq haqqında dediyi bir fikir var. O sözlər həm də bir başa Akifin özünə aiddir. "Onun ömrü qırılmadı yandı, şamıydı əridi, hər günü son gün kimi yaşayırdı, hər şeiri son şeiri kimi deyirdi, axı o cezv məqamında idi." Bəli Akifin bütün şüurlu həyatı cezv məqamında idi.

**Axşamdan çıxıb gedirəm**
**Dönüb səhərdən gəlirəm**
**Ömür yolu yetdi başa**
**Yeddi şəhərdən gəlirəm**
**Qış ölürəm, yaz ölürəm**

**Yaz adam ölməz ölürəm**
**Ürəyimdə söz ölürəm**
**Ağır səfərdən gəlirəm**

Akif Səməd ağır, toxtax, ləngərli görkəmi, lopa bığları, şirin Qazax ləhcəsi ilə duzlu-məzəli zarafatları, kinayəli, kəsərli sözləri, eyhamlı atmacaları, ilə onu tanıyanlar, eləcə də tanımayanlar arasında böyük nüfuz qazandırmışdı.Daxilən azad, sərbəst, müstəqil adam idi. Bu müstəqilliyi onu yaradıcılığına da, xarakterinə də keçmişdi. Dünya malında gözü yox idi. Halal haqq adamı idi.

**Doğru düzünə yaşasan,**
**Halal sözünə yaşasan,**
**Ömrü özünə yaşasan,**
**Qardaş ölüm nəmənədi**

**Sevənlər aşıq olmasa**
**Qan bircə qaşıq olmasa**
**Bu arvad-uşaq olmasa**
**Qardaş ölüm nəmənədi**

Akif Səməd mürid idi. Öz mürşüdlərinin müridi Nəsiminin, Yunus Əmrənin, Fizulinin müridi. Sonra özü mürşüd oldu. Və elə sağlığında da, ölümündən sonra da onun müridləri Akifin yolunu davam etdirməkdədir. Sufi ideyalar İncə Dərəsindən çıxmış şairlərin yaradıcılığında həmişə qabarıq şəkildə biruzə verir. Akif təkcə yaradıcılığında yox, xarakterində də sufi idi. O, deyirdi: "Mən Tanrıdayam,Tanrı da məndədir". Və ya

**"Sevgidə Tanrı var, Tanrıda mən varam,**
**Əvvəldə mən vardım, sonra da mən varam".**

Bəli o cismani yoxluğundan sonra da biznəndir. Akif Səməd bir az Məmməd İlqarda, bir az Nəvai Metində, bir az İbrahim İlyaslıda, bir az Atilayda, bir az Ulucayda yaşayır. O, ölməyib, bizdə bizim içimizdə yaşayır. Sadəcə yatmağa gedib.

**Görsəniz yoxam, deyin**
**Aytək batmağa getdi.**
**Öldü deməyin dostlar.**
**Akif yatmağa getdi.**

**Ancaq necə olsa da daha Akif o yuxudan oyanmayacaq və öz yaradıcılığı, yeni şeirləri, duzlu-məzəli zarfatları ilə bizi sevindirə bilməyəcək. Professor Rüstəm Kamal demiş: "Qərinələr ötəcək, şeirimizin vəzni də dəyişəcək, oxucusu da dəyişəcək. Ancaq bir daha qoca ozanlar, qərib dərvişlər üçün Akif Səmədin şeirləri kimi şeirlər yazılmayacaq".**

**Ramiz Göyüşov**